ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

# MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 9 (4905) • 25 SENTYABR 2019-cu il • Qəzet 1932-ci ildən çıxır

# "ƏSRİN MÜQAVİLƏSİ" - 25

"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

## Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə iştirak edib

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə nitq söylədi.






1994-cü ildə biz Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng neft ehtiyatlarının istismarı ilə bağlı "XX əsrin müqaviləsi" adlanan kontraktı imzaladıq. Bu, faktiki olaraq, Xəzər dənizinin xarici sərmayələr üçün açılması, ölkəmiz üçün isə transformasiya və inkişaf istiqamətində atılmış ilk vacib addım idi.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

## RAYONUN QIŞA HAZIRLIĞININ VƏZİYYƏTİ MÜZAKİRƏ EDİLMİŞDİR



Rayon İcra hakimiyyəti başçısının yanında keçirilən Şura iclasında rayonun qışa hazırlığının vəziyyəti geniş müzakirə edilmişdir.

Şura iclasında görülmüş işlər barədə idarə və müəssisə rəhbərlərinin məlumatı dinlənilmişdir.

Rayon İcra Hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev qışa hazırlığın vaxtında başa çatdırılması, bu sahədə yol verilmiş çatışmazlıqların qısa müddətdə aradan qaldırılması məqsədilə konkret tapşırıqlar vermişdir.

Şura iclasında verilmiş tapşırıqların icrası barədə 1 oktyabr 2019-cu il tarixədək rayon İcra Hakimiyyətinin başçısına məlumat verilməsi barədə müvafiq qərar qəbul edilmişdir.



## YERLƏRDƏ SƏYYAR QƏBULLAR DAVAM EDİR

### Rəhimli kəndində




Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev növbəti səyyar qəbulunu Rəhimli kəndində keçirdi.

M.Quliyev ölkəmizin sosial-iqtisadi inkişafı naminə dövlət səviyyəsində həyata keçirilən tədbirlərin, eləcə də son vaxtlar əhalinin rifah halının yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində ölkə rəhbərinin imzaladığı fərman və sərəncamların geniş icmalını verdi, regionlara göstərilən diqqəti nəzərə çatdırdı. Goranboyda görülən abadlıq-quruculuq işlərindən bəhs etdi.

Sonra rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev sakinlərdən onları narahat edən məsələlər barədə məlumat və təklif vermələrini istədi.

Ərazi sakinlərindən Rəddin Məmmədov, Rahid Tağıyev, Səlyan Əliyeva, Qönçə Əsgərova, Vüsal İbrahimov, Sərbiyyə Qaracayeva, Ariz İbrahimov və başqaları kənddə təsərrüfat suyunun çatışmamasını, içməli suyun olmamasını, bələdiyyədən icarəyə götürdüyü torpaq sahəsinin əlindən alınmasını, elektrik dirəklərinin təmiri, sürətli internetin verilməsi, yeni tikilmiş evlərə telefon çəkilişi və s. ilə bağlı məsələləri gündəmə gətirdilər.

Ardı 2-ci səhifədə

# YERLƏRDƏ SƏYYAR QƏBULLAR DAVAM EDİR



Əvvəli 1-ci səhifədə

Çıxış edənlər həmçinin sosial-iqtisadi sahədəki uğurlara, əhalinin rifah halının yaxşılaşdırılmasına dair imzaladığı fərman və sərəncamlara görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq bildirdilər.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev görüşü yekunlaşdıraraq, qaldırılan məsələlərin həlli istiqamətində müvafiq qurumlara tapşırıqlar verdi. Əksər məsələlər yerində həll olundu, digərləri nəzarətə götürüldü.

## Aşağı Ağcakənd qəsəbəsində



Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev növbəti səyyar qəbulunu oktyabrın 18-də əsasən məcburi qaçqın və köçkünlərin



məskunlaşdığı Aşağı Ağcakənd qəsəbəsində keçirdi.

Səyyar qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov da iştirak edirdi.

Sakinlər onları narahat edən məsələlərlə bağlı müraciətlər etdilər. Əsasən maldarlıqla məşğul olan sakinlər mal-qaranı otarmağa örüş sahələrinin olmamasından, subsidiya ala bilməmələrindən, içməli suyun qıt olmasından, təsərrüfat suyunun çatışmamasından, işıq dirəklərinin köhnə olmasından, internetin olmamasından, ərazidəki zibilin daşınmasında yaranmış problemdən danışdılar.

Qaldırılan məsələlərin həlli ilə bağlı yerli icra və bələdiyyə orqanlarına digər aidiyyatı təşkilat rəhbərlərinə icra başçısı tərəfindən müvafiq tapşırıqlar verildi.

# MƏKTƏB LƏVAZİMATLARI HƏDİYYƏ EDİLDİ



**Heydər Əliyev Fondu 17 min aztəminatlı ailənin övladına, uşaq evləri və internat məktəblərində məskunlaşan şəxslərə məktəb ləvazimatları hədiyyə edib.**

10 sentyabr 2019-cu il tarixdə Heydər Əliyev Fondu tərəfindən, Goranboy rayonunda aztəminatlı ailələrin birinci sinfə gedən 356 nəfər uşaqlarına məktəb çantası və ləvazimatları (çanta, qələm və karandaş dəsti, rəsm albomu, ana dili və riyaziyyat dəftəri, rəngli kağızlar, xətkeş, plastilin, pozan, qələm qədləyən, penal, kiçik termos) verildi.

# Ali məktəblərə yüksək balla qəbul olunmuş tələbələrlə görüş



5 sentyabr 2019-cu il tarixdə Goranboy rayon Mədəniyyət Evində ali məktəblərə yüksək balla qəbul olunan məzunlarla görüş keçirildi. Tədbirdə Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Ağalar Vəliyev və rayonun ümumtəhsil məktəblərinin yüksək bal toplamış məzunları, müəllimlər və valideynlər iştirak edirdilər.

İlk öncə Ulu Öndər Heydər Əliyevin rayon Mərkəzində ucaldılmış abidəsi önünə tər güllər qoyularaq Dahi Şəxsiyyətə ehtiram göstərildi. Daha sonra tədbir Mədəniyyət Evində davam etdirildi.

Tədbiri giriş sözü ilə açan icra başçısı cənab Məhərrəm Quliyev Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla həyata keçirilən dövlət təhsil siyasəti, bu siyasətin cəmiyyət və təhsilin inkişafına qazandırdığı böyük nailiyyətləri barədə geniş məruzə etdi. İcra başçısı qeyd etdi ki, 2018-2019-cu tədris ilində rayonun ümumtəhsil məktəblərində 846 nəfər məzundan 836 nəfəri adi, 10 nəfəri isə fərqlənmə attestatı almış, ümumilikdə 514 nəfər ali məktəblərə sənəd vermiş, onlardan 327 nəfəri qəbul olmuşdur. Bunlardan 10 nəfər 600-700 intervalında, 47 nəfər isə 500-600 intervalında bal toplamışdır. 10 nəfər məzun xüsusi təyinatlı ali məktəblərə qəbul olmuşdur.

Daha sonra İcra başçısı və deputat tərəfindən məzun və müəllimlərə fəxri fərmanlar, qiymətli hədiyyələr və pul mükafatları verildi.





# Tədris ilinin ilk dərs günü

15 sentyabr Bilik günü həftənin bazar gününə təsadüf etdiyindən dərslər bir gün sonra, sentyabrın 16-da başlandı. Bilik günü münasibətilə rayonun bütün ümumtəhsil ocaqlarında tədbirlər keçirildi.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Goranboy şəhər 1 saylı tam orta məktəbində keçirilən "Bilik günü"ndə iştirak etdi. Təhsil işçilərini, müəllimləri, şagirdləri və valideynləri tədris ilinin başlanması və "Bilik günü" münasibətilə təbrik etdi, onlara fəaliyyətlərində yeni-yeni uğurlar arzuladı.





